# Din adı arxasında gizlənən terrorçu dövlət

## Azərbaycan səfirliyinə hücuma görə İran məsuliyyət daşıyır





**İranda uzun müddətdir aparılan anti-Azərbaycan təbliğatının sonu terrorla nəticələndi. İranın məsələni məişət hadisəsi səviyyəsinə endirmək istəyi, yayındırmaq cəhdləri hadisənin Azərbaycana qarşı terror aktı olması gerçəyini dəyişdirə bilməz. Terrorun qarşısının alınması üçün İran polisi tərəfindən heç bir cəhd göstərilmədiyi kimi hələ də bu ölkədə məsələnin ciddi araşdırılması müşahidə edilmir. Azərbaycan isə terror aktını törədənin, eyni zamanda sifarişçilərin müəyyən edilərək layiqli cəza almasını, İranın məsələni ciddi və obyektiv araşdırmasını qətiyyətlə tələb edir.**

### İran məsuliyyətdən qaçmağa çalışır

Milli Məclisin Komitə sədri Hicran Hüseynova İrandakı səfirliyimizə hücumla bağlı bildirib ki, Azərbaycanı belə terror aktları ilə dayandırmaq mümkün deyil. O, hadisəni qətiyyətlə pisləyərək bu dəhşətli terror aktını törədən günahkarın layiqli cəza alacağına, məsuliyyətə cəlb olunacağına inandığını qeyd edib. "Şəhid Orxan Əsgərovun ailəsinə dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayıram. Bu, son iki ildə Azərbaycanın müxtəlif ölkələrdəki diplomatik nümayəndəliklərinə 5-ci hücumdur", - deyə H.Hüseynova deyib.

Komitə sədri vurğulayıb ki, diplomatik missiyalara edilən istənilən hücum qəbuledilməzdir və bu, hücuma məruz qalan ölkənin suverenliyinə, diplomatik toxunulmazlığına edilən təhdiddir, qəbul edilmiş beynəlxalq hüquq norma və prinsiplərinə ziddir. İran Vyana Konvensiyasının tələblərini yerinə yetirməmişdi.

Deputat qeyd edib ki, İran məsuliyyətdən qaçmağa, həqiqətəuyğun olmayan məlumatlar yaymağa, terror aktını "məişət işi" kimi təqdim etməyə çalışır: "İran hökuməti terror aktı ilə bağlı müxtəlif rəy və fikirlərin çap olunmasının qarşısını almaqla, əsl motivləri örtbasdır edir. Azərbaycan İrandan məsələ ilə bağlı obyektiv araşdırma gözləyir. Amma ilkin olaraq İran tərəfindən səsləndirilən fikirlərə əsaslansaq, deyə bilərik ki, buna ümid çox azdır".

Hicran Hüseynovanın sözlərinə görə, region dövlətləri Azərbaycanın Cənubi Qafqazın lider dövləti olduğunu, onun nüfuzunun dünyada artdığını yaxşı anlayırlar. Ona görə bəziləri belə terror addımları ilə ölkəmizi haqlı mübarizəsindən çəkindirməyə çalışır, amma bu yolu tutanlar səhv edirlər.

### İranla bundan sonrakı əlaqələr rejimin terrorla bağlı hansı addımlar atacağından asılıdır

Milli Məclisin deputatı Sahib Alıyev qeyd edib ki, Azərbaycan bütün dövlətlərlə, ilk növbədə də qonşularıyla körpülərin yandırılmasında deyil, dostluqda, hətta Ermənistan kimi bizə düşməncəsinə yanaşanla da əlaqələrin normallaşdırılmasında maraqlıdır. Onun sözlərinə görə, bu, təkcə bir millət kimi xarakterimizdəki tolerantlıqdan irəli gəlmir, həm də iddiası və imkanları üst-üstə düşən, qarşısında böyük üfüqlər açılan praqmatik bir dövlət olaraq belə siyasət yeridirik.

Deputat bildirib ki, öz enerji və resurslarımızı düşmənləri zərərsizləşdirməyə deyil, bütün gücüylə quruculuq işlərinə, modernləşməyə, nə qədər mümkündürsə, bir o qədər tez inkişaf etmiş ölkələrin sırasında yer almağa yönəltmək istəyirik: "Amma təəssüf ki, bu, hələlik real görünmür. Hər baxımdan, o sıradan bizə qarşı düşməncəsinə hərəkətlərində Ermənistandan da böyük ermənistanlar var ki, onlardan da biri İrandır. Bu ölkəyə yanaşmamız rəsmi Tehranın bizə yanaşmasına adekvat deyil və ola da bilməz. Çünki İran deyəndə göz önünə təkcə oradakı dinsiz rejim yox, həm də milyonlarla soydaşımızı gətiririk. Biz o reallıqdan çıxış edirik ki, ancaq 1935-ci ildən İran adlanan bu dövləti türklər, soydaşlarımız qurublar.

Ona görə də Tehrandakı səfirliyimizə edilən silahlı basqın, baş vermiş terror, qarşı tərəfin hadisənin törədilmə səbəbi ilə bağlı məkrli və riyakar açıqlamalarından sonra belə o ölkə ilə diplomatik əlaqələrə tam son qoymadıq".

Sahib Alıyev qeyd edib ki, səfirliyimizin əməkdaşlarını Tehrandan təxliyə etsək də, Təbrizdəki konsulluğumuz işləyir. Bu isə o deməkdir ki, oradakı rejimin səfirliyimizin əməkdaşlarını baş verə biləcək növbəti terror aktlarından qoruyacağına, ən əsası da bunda maraqlı olduqlarına əmin deyilik, amma Təbrizə və təbrizlilərə güvənirik. Bu güvənin arxasında isə sevgi, eyni soydan olmağımız, o şəhərin adı gələndə hamımızın eyni hissləri yaşamağımız durur.

"İranla əlaqələrin perspektivinə gəldikdə, bu, ilk növbədə, rejimin bundan sonra necə siyasət yeridəcəyindən, baş vermiş terrorla bağlı hansı addımları atacağından, cənab İlham Əliyevin Seyid İbrahim Rəisi ilə telefon danışığı zamanı səsləndirdiyi tələbin nə dərəcədə dəqiq yerinə yetiriləcəyindən asılıdır. Yəni şəffaf araşdırma aparılmalı, bu teror aktının arxasında kimlərin durduğu aydınlaşdırılmalı, təkcə ələ keçirilən ünsür yox, digər cinayətkarlar da haqq etdikləri cəzanı almalıdırlar", - deyə deputat bildirib.

O vurğulayıb ki, Azərbaycan dövləti heç bir şəhidinin qanını yerdə qalmağa qoymur və Orxanın da qanı yerdə qalmayacaq: "Bizim cavabımız simmetrik yox, assimmetrik olacaq. Çünki bəzilərindən - haylardan və onlara biz bir millətik deyənlərdən, o cür mövqe və davranış sərgiləyənlərdən fərqli olaraq terroru rədd edir, terrorçuları lənətləyirik. Biz "Elçiyə zaval yoxdur" prinsipindən çıxış edən millət və dövlətik".

### Maskası cırılan cənub qonşumuz riskli oyunlar oynayır

Milli Məclisin deputatı Vüqar Bayramov qeyd edib ki, regionda yeni düzən formalaşır. O vurğulayıb ki, yeni terror riski və İrana etimadın olmaması səbəbindən Azərbaycan Tehrandakı səfirliyini bağlamaq məcburiyyətində qalıb: "İrəvan ilə qardaşlaşan Tehran müsəlman Azərbaycanın İrandakı səfirliyinin təhlükəsizliyini təmin etmədi. Maskası cırılan cənub qonşumuz riskli oyunlar oynayır. Risk etmək isə heç də hər zaman sonda şampan içmək anlamına gəlməməlidir".

Deputat qeyd edib ki, Azərbaycan tərəfdaşları ilə əməkdaşlığı genişləndirir. Tezliklə Azərbaycanın İsraildəki səfirliyinin öz işinə başlayacağını deyən Vüqar Bayramov bildirib ki, bu, yeni əməkdaşlıq platformasıdır: "Qazanan region olacaq. İtirən isə terroru maliyyələşdirənlər".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2023.- 31 yanvar.- S. 11.